


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 230 (24.367)

*12 dekabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Gürcüstan parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı Gürcüstanın Baş naziri ilə mütəmadi görüşlərinin, o cümlədən Azərbaycan Prezidentinin dəvəti ilə İrakli Qaribaşvilinin fəxri qonaq qismində SPECA-nın Bakıda keçirilmiş Zirvə görüşündə iştirakı zamanı onunla görüşünün əlaqələrimizin möhkəmlənməsi işində rolunu qeyd etdi.



Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi birgə layihələrin önəminə toxunaraq bunu geniş regionda – Avrasiya məkanında önəmli amil kimi dəyərləndirdi və birgə təşəbbüslərimizin bundan sonra da uğurla həyata keçiriləcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın da münasibətlərimizin inkişafına mühüm töhfə verdiyini vurğuladı, bunun əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün zəruri hüquqi baza yaratdığını dedi.

Prezident İlham Əliyev Şalva Papuaşvilinin Azərbaycana səfərinin əlaqələrimizin uğurlu inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Gürcüstan parlamentinin sədri bu ilin mayında Azərbaycan Respublikası Milli Məclisinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclasında iştirakı ilə bağlı ölkəmizə səfərini məmnunluqla xatırladı. Şalva Papuaşvili Ulu Öndərin çox çətin bir dövrdə Azərbaycana müdrik rəhbərliyini qeyd edərək Ümummilli Lider Heydər Əliyevin və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin münasibətlərimizin əsasının qoyulmasında müstəsna rol oynadıqlarını dedi.

Qonaq ölkələrimizin həyata keçirdiyi layihələrin önəmini qeyd etdi, bu layihələrin xalqlarımızın rifahına və bölgədə sülhə xidmət etdiyini vurğuladı. O, ikitərəfli dostluq münasibətlərimizin uğurla inkişaf etdiyini deyərək bu işdə müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin roluna toxundu.

Görüşdə energetika, nəqliyyat, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov kollektivə təqdim olunub

Dekabrın 9-da Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov kollektivə təqdim olunub.

Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov və Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Səməd Başirli nazir müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılovu yeni təyinat münasibətilə təbrik edib, hazırkı inkişaf mərhələsində ölkə rəhbərinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan sosial-iqtisadi inkişaf ilə bağlı qarşıya qoyduğu vəzifələrdən danışıb, müəyyən edilmiş hədəflərə nail olunması istiqamətində görüləcək işlərdə uğurlar arzulayıblar.

**"Şərq qapısı"**

## T.V.Əliyevin Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tapdıq Vaqif oğlu Əliyev Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 9 dekabr 2023-cü il*

## A.H.Əhmədovun Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Hüseyn oğlu Əhmədov Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 9 dekabr 2023-cü il*

## Dövlət Proqramının icrası ilə əlaqədar iclas keçirilib

*Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar iclas keçirilib.*





Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov çıxış edərək bildirib ki, Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Muxtar respublikanın müasir yol xəritəsi sayılan bu sənəd, ümumilikdə, iqtisadiyyatın inkişafı, o cümlədən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin, sosial sektorun, insan kapitalının və infrastruktur təminatının inkişafı, elektrik enerjisi istehsalının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi 11 prioritet istiqamət üzrə fəaliyyətlərin dəstəklənməsini nəzərdə tutan prioritetlərdən ibarətdir.

Baş nazir onu da diqqətə çatdırıb ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" əsasında hazırlanmış 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda nəzərdə tutulan sosial infrastruktur layihələrinin icrası məqsədilə cari il ərzində 30-dan çox satınalma elanı verilib. 27 satınalma üzrə artıq müsabiqə yekunlaşdırılıb. 18 tender üzrə artıq qalib şirkətlər müəyyən edilib. Digər satınalmalar üzrə komissiyalar tərəfindən müvafiq meyarlar əsasında qiymətləndirmə aparılır. Qalib şirkətlərlə "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun şəkildə satınalma müqaviləsi bağlanılır.

İclasda aidiyyəti dövlət qurumlarına "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda 2024-cü ildə həyata keçirilməsi nəzərdə tutulan layihələrin icrası üçün işlərin görülməsinə başlanması ilə əlaqədar bir sıra tapşırıqlar verildi.

Sonra mövzu ətrafında müzakirələr səsləndirilib.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Azərbaycanın özü qədər əbədi



# Bütün zamanların DAHİSİ

**Ulu Öndər Heydər ƏLİYEV:** ***Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamında oxuyuruq: *“Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir”.*

Bu gün qürurlanmağa, fəxr etməyə hər cür mənəvi haqqımız çatır ki, dünya millətləri içərisində doğma Odlar yurdu həm kəmiyyət, həm də keyfiyyət etibarilə ön sırada getmək hüququnun sahibidir. Buna isə görkəmli dövlət xadimi Heydər Əliyevin hələ ölkəmizə birinci rəhbərliyi dövrü həyata keçirdiyi tədbirlər, elə o dövrdə müəyyənləşdirdiyi quruculuq siyasəti və Ulu Öndərin siyasətinə göstərilən böyük ehtiram və sədaqət hesabına nail olmuşuq. Bu gün dünyanın şəksiz qəbul etdiyi, misilsiz xidmətləri ilə tariximizə parlaq səhifələr yazmış dahi öndər Heydər Əliyev Azərbaycan xalqının yetirdiyi böyük şəxsiyyətlərin fövqündə dayanır. Bunu dünyanın bir çox aparıcı dövlətlərinin başçıları da etiraf edir.

Tarixdə böyük işləri, əməlləri ilə dərin izlər qoymuş şəxsiyyətlərin fövqündə dayanmaq kimi böyük və fövqəlbəşər reytinq qazanmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil. Bu böyük reytinqə nail olmaq Ona heç də asanlıqla başa gəlməmişdi. Bu gün haqqında keçmiş zamanda danışmaq çətin olsa da, təskinliyimiz ondadır ki, bu dahi şəxsiyyət ürəklərimizdə əbədi yaşamaq hüququ qazanıb.

...Vətəninin daha da gözəl günlərdə yaşamasını təmin etmək üçün gecəli-gündüzlü fəaliyyət göstərən bu böyük insanda olan enerjiyə dünyanın siyasi xadimləri də həsəd aparırdılar. Bu enerji ömrünü bütünlüklə öz xalqına həsr edən insana verilmiş İlahi vergidir. Xalqımız belə şəxsiyyətlə haqlı olaraq qürur hissi keçirir. Öz şəxsi keyfiyyətləri ilə əsl millilik, vətənpərvərlik, böyüklük, dahilik rəmzi olan Heydər Əliyev xarakteri, ilk növbədə, Azərbaycançılıq xüsusiyyəti ilə açılırdı. Digər insani keyfiyyətlər də məhz bu mənbədən qaynaqlanırdı. Rəhbərlik təcrübəsinin kökü də bunun üzərində qurulmuşdu. Rəhbər üçün ən böyük keyfiyyətlərdən biri, sözün əsl mənasında, milli mentalitetə malik olmaq, zamanı qabaqlamaq bacarığıdır. Ulu Öndər Heydər Əliyev hadisələrin gedişini geniş zaman çərçivəsində izləyir və bundan çox uzaqlara gedən nəticələr çıxarırdı. Daha doğrusu, lap uzaq gələcəyi görmək qabiliyyəti var idi bu böyük dühada.

Hələ sovet quruluşunda tutduğu vəzifələr, qazandığı zəngin təcrübə bu böyük şəxsiyyətdə insanları yaxından tanımaq, onlara harada hansı vəzifəni tapşırmaq qabiliyyəti formalaşdırmışdı. Ötən əsrin səksəninci illərinin sonlarında baş verən hadisələr doğma Azərbaycanımızı heç birimizin gözləmədiyi məcraya yönəltdi. Məhz belə bir vaxtda Ulu Öndər Heydər Əliyev min bir problem içində boğulan, düşmən hücumlarına hər an tuş gəlmək vəziyyətində qalan doğma torpağa gəlişi ilə hər birimizin həyata inamını özünə qaytardı. Sonralar Ulu Öndər deyəcəkdi: ***“...Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüququmdan heç kəs məhrum edə bilməz”.***

Bir qədər geri qayıdaraq Ümummilli Liderimizin vəzifə pillələrinə nəzər salsaq, bu dahi şəxsiyyətdə olan keyfiyyətlərin elə-belə formalaşmadığını görərik. Dövlət təhlükəsizliyi orqanları, 1969-1982-ci illərdə Azərbaycana ilk rəhbərliyi dövrü, 1982-1987-ci illərdə SSRİ kimi nəhəng bir imperiyanın rəhbərlərindən biri, yenidən Azərbaycana, Naxçıvana qayıdaraq burada Ali Məclisin sədri, Naxçıvan və Azərbaycan parlamentlərinə deputat seçilməsi və yenidən Azərbaycana rəhbərlik etməsi Onun siyasi tərcümeyi-halının göstəriciləridir.

Bir sıra taleyüklü məsələlərin öz həllini tapdığı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyası Ulu Öndərin böyük siyasətçi və dövlət xadimi olmasını, xalqımızın tarixi keçmişinə hörmət və ehtiramla yanaşmasını bir daha ortaya qoydu. Belə ki, həmin sessiyada üçrəngli bayrağımız ikinci dəfə Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda qaldırıldı. Həmin sessiyada Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlər müzakirə edilmiş, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarlar qəbul olunmuşdur. Məhz görkəmli dövlət xadiminin təşəbbüsü ilə həmin sessiyada “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul edilmişdir. “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” Qərara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir. Bununla əlaqədar Ümummilli Lider Heydər Əliyevin imzaladığı Ali Məclisin Qərarında deyilirdi:

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin”.*

Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvanın dayandığından məmnunluğunu bildirən, ölkəmizin tərkib hissəsi olan qədim Naxçıvanın coğrafi vəziyyətinin bu diyarda Azərbaycan torpaqlarının, sərhədlərinin qorunması üçün xüsusi əhəmiyyət kəsb etdiyini öz fəaliyyətində prioritet vəzifəyə çevirən, üç il Naxçıvanda yaşamasını və naxçıvanlılarla birlikdə işləməsini həyatının ən şərəfli və ən parlaq dövrü hesab edən Ulu Öndəri qarşıda Azərbaycana ikinci rəhbərlik dövrü gözləyirdi. Birinci hakimiyyəti dövrü qurub-yaratdığı Azərbaycan isə ovaxtkı Azərbaycan deyildi. Daxili çəkişmələr, vətəndaş müharibəsinə sürüklənmə ərəfəsi, ancaq şəxsi ambisiyalarını düşünən başıboş ölkə rəhbərlərinin səriştəsizliyi və ya bilərəkdən ölkəni bu vəziyyətə salmaları, xaos, anarxiya, rüşvətxorluq, korrupsiya və digər neqativ hallar isə ölkəni məhvə sürükləyirdi.

Xalqın təkidli tələbilə Bakıya qayıdan, Azərbaycanın sabahı üçün taleyüklü məsələlərin həllində özünün uzunillik idarəetmə metodlarından istifadə etməklə Ulu Öndər dövlətimizi, dövlətçiliyimizi, müstəqilliyimizi qoruyaraq müasir Azərbaycanı xalqa təhvil verdi. Gərgin, yorulmaz, fövqəladə əməyi ilə Ulu Öndər öz Vətəni qarşısında liderlik vəzifəsini yerinə yetirərək xalqın Ümummilli Liderinə çevrildi.

Dahi rəhbərin böyüklüyünü şərtləndirən amillərdən biri də odur ki, Ulu Öndər bütün zamanlar üçün yenidir. Buna görə də dünən də qəbul edilib, bu gün də qəbul edilir, sabah da qəbul edilmək hüququnu qazanıb. Bu böyük insanın fəaliyyətinin mərkəzində həmişə bir məqsəd, bir amal dayanmışdı: Vətən, xalq və onlar qarşısında olan ən müqəddəs borcu, vətəndaşlıq borcunu fədakarcasına yerinə yetirmək.

***“Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Vətən qarşısında övladlıq borcunu hiss etməli, respublikanın qayğıları, problemləri ilə yaşamalı, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmalıdır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında yalnız güclü, nüfuzlu və müstəqil Azərbaycan dövləti dayana bilər”.*** Vətən qarşısında övladlıq borcu... Xalqımızın böyük oğlunun hamımız üçün tövsiyə, proqram xarakteri daşıyan bu sözləri həyat idealımızdır, bütün fəaliyyətimiz bu istiqamətdə qurulub.

Övladlıq borcunu yerinə yetirməyi öyrənmək üçün ən böyük qaynaq elə bu böyük insandır – özü bu borcu can-başla yerinə yetirirdi. Azərbaycançılıq ideologiyasının müəllifi dahi Heydər Əliyevin bu istiqamətdəki fəaliyyəti hamımıza nümunədir. Ölçüyəgəlməz bu işləri sadalamağa ehtiyac yoxdur, çünki hər addımda rastlaşırıq belə işlərlə. Belə fəaliyyəti ilə O, yunan filosofu Sokratın *“Dövlətə təcrübəli, səriştəli adamlar başçılıq etməlidirlər. Gəmini müəyyən biliyə, təcrübəyə və vərdişlərə malik olan adamlar idarə edə bildiyi kimi, dövləti də o adamlar idarə etməlidirlər”* fikrini sübuta yetirdi.

*“Fəlakətə düçar olan millətin belə anlarda güclü bir şəxsiyyətə ehtiyacı olur. Elə bir şəxsiyyətə ki dağınıq düşmüş, paralanmış ümidləri, ürəklərdə ölmüş mərhəməti, vicdanı, namusu yenidən dirildərək onu şər qüvvələrə qarşı yönəldə bilsin”.* Bu müdrik kəlam sanki xalqımız və milli liderimiz Heydər Əliyev haqqında deyilib...

Dahi rəhbər təkcə bu günümüzü düşünmürdü. Həm də gələcək nəsillər üçün güclü, müstəqil Azərbaycanın olması dahi şəxsiyyətin ən ümdə amalı idi. Bu isə bizdən sonra gələnlərin taleyinə əsl vətəndaşlıq münasibəti, öz vətəndaşlıq borcuna sadiqlik nümunəsidir. Artıq bütün dünyanın qəbul etdiyi cənab İlham Əliyev Ulu Öndər siyasi məktəbinin ən layiqli davamçısı kimi görkəmli dövlət xadiminin həyatımızın bütün sahələri üçün müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirir. Canı qədər sevdiyi doğma Azərbaycanı özünün qibləgahı sayan bu böyük şəxsiyyətin hüdudsuz xalq məhəbbəti qazanmasını şərtləndirən cəhətlərdən biri də məhz cənab İlham Əliyev kimi bir siyasətçini yetişdirməsi idi.

Təkcə bir faktı xatırladaq. Ulu Öndərin ideyalarına ən böyük sadiqlik ölkə başçısının sərkərdəliyi ilə 30 il düşmən tapdağı altında qalan torpaqlarımızın 44 gün ərzində azad edilməsi görkəmli dövlət xadiminin ən böyük arzusunun reallaşması, nəticə etibarilə, ərazi bütövlüyümüzün təmin olunması idi. Və postmüharibə dövründə bu torpaqlarda kompleks quruculuq tədbirlərinin həyata keçirilməsi məhz dahi öndərin qurduğu yeni Azərbaycanın iqtisadi qüdrətinin günü-gündən güclənməsinin bariz ifadəsidir.

2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncamda deyilir: *“Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir”.*

*İstiqlalımız yaşadıqca bu müdrik siyasətçinin amalları da yaşayır və yaşayacaqdır. Bu əminlik ona görədir ki, dövlət adlı maşınımızın, titanik gəmimizin sükanı etibarlı əllərdədir. Bu gün onun sükanını məharətlə idarə edən cənab İlham Əliyevin fəaliyyətinin hər detalında bu böyük şəxsiyyətin yaratdığı siyasi məktəbin təlimi dayanır – dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasına, inkişafına, tərəqqisinə, xalqın yüksək həyat səviyyəsinin təmin olunmasına yönəldilmiş təlim. Məhz bu təlimin bəhrəsidir bugünkü Azərbaycan. Memarı isə dahi Heydər Əliyev. Ulu Öndər deyirdi:* ***“Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam”.***

✍ **Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

*Dekabrın 9-da Naxçıvan Şahmat Mərkəzində və Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tabeliyində olan ümumi təhsil müəssisələrində tədris yardımçı heyətin işə qəbulu üzrə ilk dəfə olaraq test imtahanı keçirilib.*

## Təhsil müəssisələri yüksəkixtisaslı kadrlarla təmin edilir, işə qəbul prosesi şəffaf aparılır



İmtahan prosesində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, səlahiyyətli nümayəndəliyin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı, Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov və ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli iştirakçılara uğurlar arzulayaraq bildirib ki, muxtar respublikada işə qəbul prosesi artıq şəffaf şəkildə həyata keçirilir. Naxçıvanda ilk dəfə olaraq ümumi təhsil müəssisələrinin yardımçı heyəti üçün keçirilən test imtahanı da bu tədbirlərin davamıdır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov KİV nümayəndələrinə müsahibəsində dedi: – İşə qəbul qaydaları çərçivəsində Naxçıvan Muxtar Respublikasında tədris yardımçı heyətin işə qəbulu üzrə test imtahanı keçirildi. İmtahan prosesinin şəffaf, hər kəs üçün bərabərhüquqlu təşkil olunduğunu müxtəlif dövlət qurumlarının ziyalıları, ictimaiyyət nümayəndələri müşahidə etdilər. Ümid edirəm ki, imtahan nəticəsində daha yüksək nəticə göstərən, məktəbdə şəxsiyyətyönümlü inkişafa daha faydalı və səmərəli ola bilən namizədlər uğur qazanacaqlar. Gələcəkdə direktor,



direktor müavinlərinin, ümumilikdə isə ölkə üzrə müəyyənləşmiş qaydada müəllimlərin işə qəbulu həyata keçiriləcək. Məqsəd Naxçıvan Muxtar Respublikasında aparılan islahatlar kontekstində təhsilin idarə olunması, eyni zamanda işə qəbul qaydalarında ədalətli və qanunvericilik normativlərini əsas tutmaqdır.

İmtahanda müstəqil ekspert qismində iştirak edənlər və imtahan verən namizədlərlə həmsöhbət olduq.

***Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov***: – Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi imtahanda müşahidəçi kimi iştirak etdik. İmtahan prosesi çox şəffaf, obyektiv keçdi. İmtahanların bu cür təşkili təhsilimizin inkişafı, idarəçiliyin daha da yaxşılaşdırılması baxımından mütərəqqi addımdır. Bütün bunlar layiqli kadrların məktəblərdə öz yerlərini tutmasında, şagirdlərin təlim-tərbiyəsinin yüksək səviyyədə, dövlətin qarşıya qoyduğu istiqamətdə yerinə yetirilməsi üçün çox əhəmiyyətlidir.

***Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev***: – Ölkəmizdə həyata keçirilən təhsil islahatları, təhsillə bağlı dövlət strategiyasının qəbul olunması, eyni zamanda Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının təmin olunması ilə bağlı ölkə başçının müvafiq sərəncamları təhsil sahəsində şəffaflığın, davamlılığın və əlçatanlığın təmin olunması istiqamətində əhəmiyyətli addımlardır. Muxtar respublikamızda bir çox sahələrlə yanaşı, təhsil sahəsində də son vaxtlar əldə olunan uğurlar bu gün müşahidə etdiyimiz imtahan prosesində həm şəffaflıq, həm də əlçatanlıq baxımından özünü göstərdi. Ümid edirik ki, belə layihələr davamlı olacaq və ölkə təhsilinin inkişafına mühüm töhfələr verəcək.

***Orxan Zamanlı***: – "Naxçıvan" Universitetini bitirmişəm. Babək rayonunun Qahab kənd tam orta məktəbində laborant vəzifəsini tutmaq üçün imtahan verdim. İmtahan şəffaf keçdi, nəzarət güclü idi. Suallar çətin deyildi. İnanıram ki, uğurlu olacaq.

***Arzu Fərəcova***: – Naxçıvan Müəllimlər İnstitutunun məzunuyam. Şərur rayon 2 nömrəli tam orta məktəbdə fəaliyyət göstərmək üçün imtahan verdim. 20 sualın hamısına cavab yazdım. İmtahanın rahat keçməsi üçün hər cür şərait yaradılmışdı. Təşkilatçılara təşəkkür edirəm.

*Qeyd edək ki, təhsil müəssisələrinin yüksəkixtisaslı kadrlarla təmin edilməsi və işə qəbul prosesinin şəffaf həyata keçirilməsi məqsədilə təşkil olunan müsabiqədə 126 vakant vəzifə üzrə 600-ə yaxın namizəd iştirak edib. Müsabiqənin test mərhələsində uğur qazanan namizədlər müsahibə mərhələsinə cəlb ediləcəklər.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Ulu Öndərin anım gününə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Baş Gömrük İdarəsində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə dahi şəxsiyyətin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub, Heydər Əliyev Muzeyi ziyarət olunub.

Naxçıvan Baş Gömrük İdarəsində davam etdirilən tədbirdə idarənin rəisi Vüqar Əliyev Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətindəki böyük xilaskarlıq missiyasından danışıb.

Tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli Azərbaycanın hərtərəfli tərəqqisi yolunda xidmətlər göstərən, dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunmasına əvəzsiz töhfələr verən Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, misilsiz tarixi xidmətlərindən, Vətənə sədaqət, xalqa fədakarlıqla xidmət nümunələrindən söz açıb.

Sonda Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən filmə baxış keçirilib.

* * *

*AMEA Naxçıvan Bölməsində Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar "Əbədiyaşar lider" mövzusunda elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Natiq çıxışı zamanı Ümummilli Liderin zəngin siyasi irsindən söz açıb, dahi liderin ölkəyə rəhbərliyinin hər iki dövründə Azərbaycanın gələcək inkişafına yönəlik həyata keçirdiyi işlərdən danışıb. Ölkə başçısının 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğunu xatırladıb.

"Ümummilli Lider Heydər Əliyevin siyasi irsi Azərbaycan tarixi üçün dəyərli mənbədir. Bu zəngin irs bu gün də, gələcəkdə də ölkəmizin inkişafına töhfələr verəcəkdir", – deyən akademik AMEA Naxçıvan Bölməsində Ulu Öndərin siyasi irsinin tədqiqi və təbliği ilə bağlı görülmüş və icrası nəzərdə tutulan işlərdən bəhs edib.



Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun icraçı direktoru, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, həmin institutun Dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Nuray Əliyeva, Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov müxtəlif mövzularda məruzələr ediblər.

Məruzəçilər Ulu Öndərin Azərbaycan dilinə və ədəbiyyatına qayğısından, bütöv Azərbaycan ideyasına xidmət edən söz adamlarına hamiliyindən bəhs edib, milli-tarixi yaddaşın yaşadılması istiqamətində gördüyü işləri və həmin fəaliyyətin bugünkü nəticələrini təhlil ediblər.

**Xəbərlər şöbəsi**

## Sahibkarların iştirakı ilə ilk dəfə olaraq infotur təşkil olunub

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində sahibkarların iştirakı ilə ilk dəfə olaraq infotur təşkil olunub.*






İnfoturun təşkilində məqsəd Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan özəl təhsil müəssisələrinin yaradılması istiqamətində sahibkarlar arasında təşviqat işlərinin aparılmasıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Bəxtiyar Məmmədov, təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov, iqtisadiyyat naziri vəzifələrinin icraçısı, nazir müavini Abbas İsmayılov və maliyyə naziri vəzifələrinin icraçısı, nazir müavini Həsən İsmayılov iştirak ediblər.

Sahibkarların iştirakı ilə təşkil olunan infoturun açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov bildirib ki, Dövlət Proqramında muxtar respublikada digər sahələrlə yanaşı, sahibkarlığın inkişafı sahəsində bir sıra hədəflər müəyyənləşdirilib, həmçinin özəl təhsil və tibb müəssisələrinin yaradılması nəzərdə tutulub.

Nazir müavini diqqətə çatdırıb ki, muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin əksəriyyəti dövlət təhsil müəssisələridir və bu sahədə özəl təhsil müəssisələrinin yaradılmasına ehtiyac var. Digər bir sahə isə məktəbəqədər təhsil müəssisələridir. Məktəbəqədər təhsil müəssisələrimizdə 4 minə yaxın uşaq təlim-tərbiyə alır. Naxçıvan şəhərində, rayon mərkəzlərində və bir sıra əhalisi çox olan kəndlərimizdə məktəbəqədər təhsil müəssisələrinin yaradılmasına ehtiyac var. İş adamlarımız bu sahəyə investisiya yatıra bilərlər. İmkanı olan sahibkarlar Naxçıvanda özəl peşə məktəblərinin yaradılmasında da fəallıq göstərə bilərlər. Bakı şəhərində təhsilin bütün pillələrində özəl təhsil müəssisələri uğurla fəaliyyət göstərir. Son dövrlər sahibkarlar paytaxtda özəl məktəbəqədər təhsil müəssisələrinin yaradılmasında da böyük maraq göstərirlər. Naxçıvanda bu sahə ilə bağlı fəaliyyət göstərmək istəyən iş adamları onların təcrübələrindən yararlana bilərlər. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən özəl təhsil müəssisələri açmaq istəyən sahibkarlara hərtərəfli şərait yaradılacaq, onlara nazirlik tərəfindən metodiki dəstək göstəriləcək. Burada özəl təhsil müəssisələri yaradılarsa, bu müəssisələrdə fəaliyyət göstərəcək kifayət qədər yüksək biliyə, bacarığa malik pedaqoji kadrlar da var.




İqtisadiyyat naziri vəzifələrinin icraçısı, nazir müavini Abbas İsmayılov çıxışında bildirib ki, Dövlət Proqramının müvafiq prioritet istiqamətlərinə daxil olan muxtar respublikada əlverişli biznes mühitinin yaradılması və sosial sektorun inkişafı istiqamətləri üzrə özəl sektor tərəfindən sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və özəl təhsil müəssisələrinin yaradılması üçün sahibkarlar arasında təşviqat işlərinin aparılması nəzərdə tutulub. Muxtar respublikada hazırda 22 özəl təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 1-i universitet, 21-i isə özəl təhsillə məşğul olan hazırlıq kurslarıdır. Muxtar respublikada özəl məktəbəqədər təhsil müəssisəsi kimi fəaliyyət göstərən sahibkarlıq subyekti mövcud deyildir. Muxtar respublikada hazırlıq kursları kimi fəaliyyət göstərən vergiödəyicilərinin sayında ilin əvvəli ilə müqayisədə 3 dəfə artım baş verib.

Abbas İsmayılov qeyd edib ki, muxtar respublikada, ümumilikdə, 20 məktəbəqədər dövlət təhsil müəssisəsi olan bağça fəaliyyət göstərir. Bu bağçalarda 201 qrup üzrə, ümumilikdə, 3775 uşaq tərbiyə alır. Bağçalarda orta hesabla, ümumilikdə, 900-dən çox işçi çalışır. Bir bağçaya düşən işçi sayı orta hesabla 45 nəfər, bir bağçaya düşən uşaq sayı, təqribən, 220 nəfərdir. Muxtar respublikada məktəbəqədər təhsil müəssisəsi olan bağçaların çatışmazlığından, ümumilikdə, 18 171 uşaq (1-5 yaş aralığı) məktəbəqədər təhsil pilləsindən kənarda qalır. Məktəbəqədər təhsil pilləsindən kənarda qalanların 2345-i, yəni 13 faizi Naxçıvan şəhərinin, 15 826-sı, yəni 87 faizi isə rayonların payına düşür. Ümumilikdə, muxtar respublikada müvafiq yaş qrupu üzrə 21 946 uşaqdan yalnız 17 faizi (3775 uşaq) bağçaya gedə bilir. Beləliklə, muxtar respublikada məktəbəqədər təhsil pilləsindən kənarda qalan uşaqlar üçün 50-dən çox bağçaya ehtiyac vardır. Bütün bunlar bu sahənin perspektiv inkişafa nə qədər uyğun olduğunu göstərir. Həmçinin qeyd edilən sayda bağçanın muxtar respublikada tikilməsi və fəaliyyətə başlaması özlüyündə məşğulluğun təmin olunmasına böyük töhfələr verə bilər.

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov qeyd edib ki, ötən ilin bu ayında muxtar respublikada yeni idarəetmə formasının yaradılması Naxçıvanda idarəetmə üsulunun səmərəliliyinin artırılmasına, region iqtisadiyyatının daha da inkişafına, islahatların sürətlə və uğurla həyata keçirilməsinə şərait yaratmış, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə keçid təmin edilmişdir. Bu həmçinin muxtar respublikaya yerli və xarici investorların cəlb edilməsi prosesini aktivləşdirib. Bu il Naxçıvan Muxtar Respublikası üçün ən mühüm hadisələrdən birincisi cənab Prezidentin 2023-cü il 5 iyun tarixli Sərəncamına əsasən təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsidir. Dövlət Proqramı çox əhatəli və geniş tərtib olunmaqla, ümumilikdə, 11 prioritet istiqamət üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Vurğulanıb ki, Dövlət Proqramının mühüm prioritet istiqamətlərindən biri də özəl təhsil müəssisələrinin yaradılması üçün sahibkarlar arasında təşviqat işlərinin aparılmasıdır. Müvafiq sahələr üzrə muxtar respublikada özəl sektorun yaradılması və inkişafı qarşıya qoyulan əsas məsələlərdəndir. Ölkə Prezidentinin uğurlu siyasətinin nəticəsi olaraq bu gün bütün bölgələr kimi, Naxçıvan da yüksək inkişaf mərhələsindədir. Bu da muxtar respublikada azad sahibkarlığın yaradılmasına şərait yaradır. Qeyd etmək istərdim ki, özəl təhsil müəssisələrinin fəaliyyəti üçün çox əlverişli mühit yaradılmışdır. Özəl təhsil müəssisələrinin yaradılması həm sahibkarlığın, iqtisadiyyatın inkişafına təsir edəcək, həm də büdcənin yükünü nisbətən azaldacaqdır.

Sonra sahibkarların fikir və təklifləri dinlənilib, onların sualları cavablandırılıb.

Tədbirdən sonra iş adamları Naxçıvan şəhərindəki təhsil müəssisələrində də olub.

**Ceyhun MƏMMƏDOV**

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



**_Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz._**

## Dəmir biləkli insanlar



Dünya Azərbaycanlılarının Həmrəylik Günü. Böyük bir tarixi dastan yazıldı bu gün. Bir də ən önəmlisi bu tarixi dastan kəlmə-kəlmə, sətir-sətir məhz elə bizim doğma Naxçıvanımızda yazılaraq elə bizim yurdun insanlarının dəmir iradəsindən doğularaq təkrarsız bir epoxaya döndü. Bu birlik, bərabərlik məşəli doğma Naxçıvanımızdan pərvazlanaraq bütün dünyadakı azərbaycanlıları qolları arasına alaraq tariximizin çox önəmli və əvəzolunmaz bir salnaməsi oldu.

Bu gün bizim birliyimizin tərənnümüdür, bu gün bizim hünərimizin təcəssümüdür, bu gün bizim milli azadlığımızın mübarizəsinin qələbəsidir, bu gün bizim illərlə arzularımızda yaşatdığımız, sevdiyimiz, əzbərlədiyimiz, yanğıyla dinlədiyimiz Məhəmmədhüseyn Şəhriyarlarımızın, Sara Qədimovalarımızın, Rübabə Muradovalarımızın Vətən həsrətidir.

Bizim həmrəyliyimiz 70 il boğularaq yaşamağa məcbur edilən, öz milli mənliyi unutdurulmağa çalışılsa da, özünə, soykökünə aid olan bütün mənəvi dəyərlərimizi gizli yaşayan bir millətin iç səsinin qələbəsidir. O taylı, bu taylı azərbaycanlıların bir əsrlik birləşmək şüarları Arazdan kükrəyərək qəsbkarlara çəkil dedi. Bəli artıq zamanı gəldi: varlığımızı göstərməyin və bizim olan hər şeyi geri almağın. Azadlıq qoxusu alan xalqımız var gücüylə zəncirləri qırmaq qərarına gəldi. Ölməz şairimiz Xəlil Rza Ulutürkün dediyi kimi:

*Azadlığı istəmirəm zərrə-zərrə,*
*qram-qram!*
*Qolumdakı zəncirləri qıram*
*gərək, qıram, qıram!*

Bəli, qırdılar bütün zəncirləri, bütün qadağaları. Biz sərhəd dirəklərinin yıxılmasıyla öz milli mənliyimizə, öz milli dəyərlərimizə, öz milli kimliyimizə dönüş etdik...

Doğulub böyüdüyüm Şərur rayonunun Muğanlı kəndi Araz çayının tam sahilində yerləşir. Belə ki, Naxçıvan-İran sərhədinin bir qismi də bizim kəndin payına düşür. Kəndimizin tam sərhəddə yerləşməsi isə, demək olar ki, bizim yaddaşımıza çox böyük töhfələr verib. Çünki bir çox tarixi hadisələrə şahid olmuşuq. Həmrəylik günü dedikdə isə gözlərimin önündə çox möhtəşəm mənzərələr canlanır. Həmin gün dayımın toyu idi, bir neçə saat sonra toy üçün qonaqlar gələcəkdi. Kəndin müxtəlif yerlərində səsgücləndiricilərlə hər kəsi dəmir çəpərlərin önündəki kanalın başına toplanmağı, qorxmamağımızı, bu günün çoxdandır gözlənilən həmin gün olduğunu söyləyirdilər. Biz də böyüklərimizin üzündəki böyük həyəcanı anlamağa çalışırdıq. Bir neçə anonsun ardından bütün kənd əhalisinin sərhədə axışmasını gördük. Burada hər kəs vardı; yaşlı, cavan, balaca uşaqlar, körpəsi qucağında gələn analar və başqaları. Azadlığa, həmrəyliyə doğru addımlayan insan selini görüncə biz də uşaq ağlımızla getmək istədik, amma bizi buraxmadılar, “toy eviyik bir azdan qonaqlarımız gələcək”, – dedilər. Bu səbəbdən sərhəd dirəklərinin, “qraniçin” dəmir çəpərlərinin dağıdılmasını babamgilin kətilindən izlədik.

Babamgilin kətilindən baxdığımızda sərhəd dirəklərini sökən insanları aydınca görmək olurdu. Çünki babamgilin evi sərhədə çox yaxın idi; təxminən, 250-300 metr məsafə var idi. İnsanlar əllərində dəmir parçalarıyla, baltalarla dəmir çəpərləri, tikanlı məftilləri parçalayırdılar. Əsgər postlarını yerlə bir etdilər. Ertəsi gün dayım bizi sərhədə apardığında sökülən sərhəd qurğularının arxasında yulğun ağaclarından ibarət qalın və yüksək bir meşəylə rastlaşdıq. Nə az, nə çox, düz 70 il ayaq basılmamış bir meşə.

Bəli, həmrəylik günü dedikdə, insanların bir amal uğrunda mübarizəsindən danışdıqda, xalq birliyindən söhbət açanda mən bunları xatırlayıram; dəmir biləkli insanları. O insanlar ki onlarla eyni havanı udub, eyni suyu içib, eyni torpaqda yaşamaq nəsibim olub. O torpaqda böyümək, o möhtəşəm günlərə şahidlik etmək yazılıb qismətimə. Balaca uşaq olsam belə bu hadisələrin şahidi olmaq çox qürurverici idi. İllərlə iki qardaşı bir-birindən ayrı qalmağa məcbur edən sərhəd dirəklərinin sökülməsini görmək, bu tarixin canlı bir parçası olmaq möhtəşəm bir duyğudur. Nənəm gözləri dolaraq danışardı Arazın o tayında qalan yaxınlarının xatirələrini. Bu xatirələri dinləyərək böyümək və o sərhədlərin yerləyeksan edildiyi anlara şahid olmaq, milli birliyimizin, milli kimliyimizin bərpasının təməl daşlarının atılmasında bir damla olmaq çox əvəzsiz hisslərdi. İndi dünyanın bütün ölkələrində yaşayan həmvətənlərimiz bu günü birliyimizin simvolu olaraq qeyd edir, anır, o günlərə təkrar-təkrar qayıdıb, milliliyə dönüşümüzə alqış tuturuq.

Həm də böyük bir xoşbəxtliyin daşıyıcısıyıq ki, Azərbaycan dövlətçiliyinin və xalqımızın həmrəyliyinin təməl daşlarının atıldığı bu torpaq Azərbaycançılıq ideologiyasının banisi olan dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyi nəticəsində qorundu, inkişaf etdi, müasirləşdi. Həmrəyliyimizin təməli bu diyarda qoyulduğu kimi, onun rəsmiləşməsi, dövlət quruculuğunun buradan başlaması da bizi böyük tarixin bir parçasına çevirmiş oldu. Bu gün böyük öndərin ruhunu ehtiramla anır, Onun ideyaları, Azərbaycançılıq fikirləri əsasında davam edən bu həmrəyliyin yeni mərhələyə gəlib çıxmasından qürur duyuruq...



Artıq 7 ildir ki, Vətəndən uzaqda, Amerika Birləşmiş Ştatlarının Florida Ştatının Tampa şəhərində yaşayıram. Ailəliyəm, Şan və Maya adında iki balaca fidanımız var. Evdə balacalar milli mədəniyyətimizin, milli ədəbiyyatımızın sevilən parçaları olan “Tıq-tıq xanım” və “Cırtdan” nağıllarını sevərək dinləyirlər. Hər gün bunu sevərək və təkidlə dinlədiklərində isə insanın qəlbi qürurla dolur və o an düşünürsən ki, nə yaxşı ki, millətimin belə qiymətli əsərləri var. Əsrlərlə, illərlə köhnəlməyən, unudulmayan dostluq, qardaşlıq, birlik, həmrəylik dolu nağıllarımız, hekayələrimiz var.

Bir Azərbaycan vətəndaşı kimi Vətənimizdən çox uzaqlarda həmrəylik gününün qeyd olunmasını tam olaraq mənəvi bir ehtiyac olaraq qəbul edib bu günün özəlliyini uşaq yaddaşımla dönə-dönə yaşayıram. Həmrəyliyimizin varlığı üçün əlindən gələni əsirgəməyən, Vətənimizdə və qürbətdə yaşayan, Vətən üçün çırpınan, Vətənimizin adını yüksəklərə daşıyanları gördüyümdə isə fərəh hissi ilə deyirəm: “Nə yaxşı ki, imzası var millətimin imzalar içində”.

Sonda Vətənimizdə və həmçinin Vətənimizdən kənarda yaşayan, qəlbi Azərbaycan deyə döyünən hər kəsi təbrik edirəm, birliyimiz, varlığımız daimi olsun, əzəli olsun deyirəm, sülh hər zaman həmrəyliyimizin qəlbində olsun.

**Samirə ƏKİNÇİ**
***Keçmiş jurnalist***
***ABŞ, Florida, Tampa***

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Pediatriya Cəmiyyəti, Doğu Pediatriya Dərnəyi, Pediatriya Uzmanlıq Akademiyası Dərnəyi və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən simpoziumdan əvvəl qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, hörmət və ehtiramlarını bildiriblər. Qonaqlara Heydər Əliyev Muzeyinin zəngin ekspozisiyası barədə geniş məlumat verilib.*

## Azərbaycan və Türkiyə pediatrlarının Naxçıvan I Pediatriya simpoziumu keçirilib



Ali təhsil ocağında keçirilən simpoziumda Ulu Öndərin və Vətən uğrunda canını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Simpoziumun sədri, Türkiyənin Dicle Universitetinin Tibb fakültəsi Uşaq sağlığı və xəstəlikləri kafedrasının professoru İlyas Yolbaş çıxış edərək Azərbaycan və Türkiyə universitetlərinin birgə əməkdaşlıq məsələlərindən danışıb. Professor artıq iki aydır ki, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində tədris prosesində iştirak etdiyini diqqətə çatdırıb. İlyas Yolbaş simpoziumun işinə uğurlar arzulayıb.



Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Elsever Əsədov qonaqları salamlayaraq Ulu Öndərin 100 illik yubileyi çərçivəsində keçirilən simpoziumun ali təhsil ocağının Tibb fakültəsi üçün mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

Simpoziumun sədri, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva simpoziumun elmi və ictimai əhəmiyyətini vurğulayıb. Bildirilib ki, simpoziumda edilən çıxışlar, aparılan müzakirələr Tibb fakültəsinin professor-müəllim heyəti üçün öz müsbət təcrübələri ilə yadda qalacaq.

Simpoziumda Təşkilat komitəsinin üzvləri Azərbaycan Pediatriya Cəmiyyətinin təsisçisi Erkin Rəhimov, Pediatriya uzmanları Akademiya Dərnəyinin təsisçisi Bumin Dundar, Doğu Pediatriya Dərnəyinin təsisçisi Velat Şenin çıxışları dinlənilib. Qonaqlar universitetin rektoru Elbrus İsayevə simpoziuma göstərdiyi dəstəyə görə plaket və hədiyyə təqdim ediblər.

Sonra Türkiyədən və Bakıdan gələn həkimlərin məruzələri dinlənilib. Məruzələrdə uşaqların qidalanmasında vacib məqamlar, uşaqların müayinəsində EKG dəyərləndirmələr, yeni doğulmuşlarda daban testi, profilaktik dəmir və D vitamini verilməsi, uşaqlarda ağciyər X-ray dəyərləndirilməsi, epilepsiya ilə qarışan xəstəliklər: qızılca, peyvənd təreddüdü və peyvəndlə əlaqəli problemlər, sağlam uşağın izlənməsi və digər mövzular müzakirə edilib.

Sonra ali təhsil ocağında ikitərəfli görüş keçirilib. Tədbirdə universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov universitetdə tədris olunan ixtisaslar, Tibb fakültəsi barədə ətraflı məlumat verib.

Pediatriya uzmanları Akademiya Dərnəyinin təsisçisi Bumin Dundar, Doğu Pediatriya Dərnəyinin təsisçisi Velat Şen çıxış edərək gələcəkdə bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Azərbaycan Pediatriya Cəmiyyətinin təsisçisi Erkin Rəhimov qeyd edib ki, yeni yaradılan dərnəyin məqsədi ölkəmizdə körpə və uşaq sağlamlığının inkişafına və pediatriyanın irəliləməsinə xidmət etməkdir. Erkin Rəhimov bildirib ki, bölgələrdə də uşaq səhiyyəsinin inkişafına töhfə vermək məqsədini əlimizdə rəhbər tutaraq dərnəyimizə muxtar respublikadan da həkimləri dəvət edəcəyik.

Görüşdə ölkəmizin tibb sahəsində qardaş ölkənin təcrübəsindən faydalanması barədə fikirlər qeyd edilib.

Sonda Naxçıvan Dövlət Universitetinin prorektoru Rafiq Rəhimov “Naxçıvan Şərqin əfsanəsi” kitabını qonaqlara hədiyyə edib.

***Naxçıvan Dövlət Universitetinin Media və ictimaiyyətlə əlaqələr bölməsi***

## Ölkə çempionatının qalibləri

Bakı Boks Mərkəzində kişi boksçular arasında Azərbaycan çempionatına yekun vurulub. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını,



həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 41 komandanın 167 boksçusu qüvvəsini sınayıb. 6 gün davam edən turnirdə 13 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Naxçıvan boks məktəbinin yetirmələri Tayfur Əliyev 63,5 kiloqram, Sərxan Əliyev isə 71 kiloqram çəki dərəcələrində bütün görüşlərini qalibiyyətlə tamamlayaraq ölkə çempionu olublar.



Final döyüşlərini gənclər və idman naziri Fərid Qayıbov, əmək və əhalinin sosial müdafiəsi naziri, Boks Federasiyasının prezidenti Sahil Babayev və digər rəsmilər də izləyiblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində tədbir



Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində “Hərbi kollektivdə münasibətlərin və fəaliyyətin psixologiyası, gənc əsgərlərin hərbi xidmətə sosial-psixoloji adaptasiyası” mövzusunda tədbir keçirilib.

Naxçıvan hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Aqil Axundov, Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Rəhim Cəfərov, Məhkəmə ekspertiza Mərkəzinin Psixoloji Ekspertiza bölməsinin rəisi Valeh Fərəcov, bölmənin böyük eksperti Fariz Səyyadov və Naxçıvan Dövlət Universitetinin Magistratura və Doktorantura Mərkəzinin direktoru Çapay Quliyev çıxışlarında bildiriblər ki, hərbi xidmətin gənclərə Vətənə, dövlətə, xalqa xidmət kimi təbliğ edilməsi hərbi xidmət şəraitini, onların fəaliyyətini, şəxsiyyətini və sosial-psixoloji adaptasiyasını şərtləndirir. Gənc əsgərlərin hərbi xidmətə sosial-psixoloji cəhətdən uyğunlaşması vacib məsələlərdən biridir.

Sonra müxtəlif mövzularda çıxışlar olub.

**Kənan CƏLİLOV**

### İtmişdir

Babək rayonu, Vayxır kəndində Seyidbəyli Mirmusa Ağa oğluna məxsus torpaq sahəsinin JN-236 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

“MES-T” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus Tədris-Ticarət Mərkəzinə aid 000372 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 714